Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.- 2013.- №2(86).- S.187-190.



Kəmalə İslamzadə

# AZƏRBAYCAN FOLKLORUNDA "ANA", "UŞAQ" VƏ "KÖLGƏ" SÜJET ARXETİPLƏRİ

Dünya xalqlarının folklorunda mövcud olan oxşar süjetlərin XIX əsrdən bu günədək müqayisəsi və təhlili göstərir ki, ilkin inkişaf mərhələlərində uyğunluqlar daha bariz və qabarıq şəkildə təzahür edir. Rəngarənglik, özünəməxsusluq, fərqlilik sonrakı pillələrdə meydana çıxmışdır və çox zaman erkən dövrlərə xas analogiyaları pərdələyir, arxa plana, alt qata ötürür. Lakin dərin etnopsixoloji və psixoanalitik təhlil beynəlxalq folklorşünaslıqda "arxetip" termini altında sabitləşmiş, bu və ya digər süjetin yaranmasına təkan vermiş elementlərin üzə çıxarılmasını mümkün edir. Həmin elementlər əsasən kollektiv təsəvvürlərin bazasında, bioloji irsiyyətin şüursuz diktəsi altında əmələ gəlir və hər cür fərdi təzahürlərə müxalif mövqedə durur.

İbtidai icma quruluşunda, tayfa, qəbilə icmaları şəklində həyat sürən ilkin insanlar yaşamaq uğrunda sözün həqiqi mənasında mübarizə aparır və sağ qalmaq üçün dövrün sərt qanunlarına tabe olurdular. Bu prosesdə onlar təbiət qüvvələri, bitki və heyvanlar aləmi, ruhlar, yer, göy, dünya haqqında öz əcdadlarından miras qalmış, əsrlərlə formalaşmış kollektiv təsəvvürlər sistemini rəhbər tuturdular. Onu da vurğulamalıyıq ki, həmin təsəvvürlər sistemi tayfanın müşahidələri, onlardan çıxardığı düzgün və ya yanlış nəticələri, təcrübəsi sayəsində damla-damla yaranır. Həm də proses çox ləng gedir. Müqayisə etsək görərik ki, bu gün bəşəriyyətin malik olduğu informasiyanın (buraya kəşflər, ixtiralar, yeniliklər də daxildir) ikiqat artması üçün bir neçə ay kifayət edirsə, tayfa-qəbilə icmaları dövründə buna minilliklər lazımdır.

Kollektiv təsəvvürlər sistemi qalıcı və yaşarı xarakter daşıyır, öz aktiv dövrünü bitirdikdən sonra belə şüuraltıya keçir. Həmin təsəvvürlər mətn formasında öz təzahürünü miflərdə tapır, oradan isə nağıl və eposa transfer edilir. Maraqlıdır ki, bünövrəsində kollektiv təsəvvürlər sisteminin durduğu arxetiplər janrdan janra adlayarkən müxtəlif transformasiya və dəyişikliklərə uğramış şəkildə, fərqli modifikasiyalarda üzə çıxır. Çox zaman bu dəyişikliklər arxetipləri tanınmaz edir. Bununla belə müəyyən üsullardan istifadə etməklə, cəmiyyətin inkişaf mərhələlərinin əksi istiqamətində pillə-pillə geri qayıtmaqla ilkin mənzərənin rekonstruksiyası mümkündür.

Arxetiplərin müəyyənləşdirilməsi folklorda "süjetlərin dilinin" başa düşülməsinə, obraz, məkan və hadisələrin ifadə etdiyi rəmz və işarələrin anlaşılmasına yardım göstərir. Məsələn, nağıl və dastanlarda hadisələrin baş verdiyi məkanlar özlüyündə müəyyən mənaları kodlaşdırır. Belə ki, meşə - şər qüvvələrin hökmran olduğu ərazidir. Çay – müxtəlif sferaların, yeraltı və yerüstü dünyanın sərhədidir.

Cəmiyyətin təkamülünün ilkin mərhələlərində insanın özünü təbiətin bir parçası, tərkib hissəsi hesab etdiyi, hətta təbiətin müxtəlif obyekt və varlıqlarını əcdadı kimi qəbul etdiyi məlumdur. İnsanlar təbiət qüvvələrini dərk etməyə, onları müxtəlif yollarla (qurban vermək, mərasim keçirmək, yalvarmaq və s.) özlərinə sərf edən istiqamətə yönəltməyə çalışmışlar. Təbiət və cəmiyyət arasındakı bu harmonik münasibətlər süjet arxetiplərinin, obrazların, hətta bütöv janrların yaranmasına öz təsirini göstərmişdir. Belə ki, insan orqanizmi təbii dövr təşkil edən günəş ilinin ritminə sinxron olaraq fəaliyyət göstərir. Buna uyğun surətdə poetik ölçü və ritmlər də təbii dövr və ritmləri özünəməxsus şəkildə təkrarlayır. Məsələn, sübh şəfəqləri, bahar - qəhrəmanın möcüzəli doğuluşu, dirilməsi və zülmətin məhvi haqqında miflərin əsasında durur. Astronomik mənada ən yüksək xəyali nöqtə (zirvə), yay fəsli, nikah, təntənə - cənnət, şöhrət, sakral toy barədə mifləri doğurur. Günəşin batması, payız, ölüm isə dünya daşqını, xaos, dünyanın sonu ilə bağlı miflərə aparır (N.Fray).

Diqqəti daha çox çəkən, bütün xalqların folklorunda özünü göstərən süjetlərin ilkin elementini təşkil edən "ana", "uşaq", "kölgə" arxetipləri üzərində dayanmalıyıq. "Ana" əbədi, ölümsüz və qeyri-şüurlu ünsürü, qüvvəni ifadə edir. "Uşaq" kollektiv (ümumi) qeyri-şüurlu ünsürdən fərdi şüurun oyanmasının başlanğıcını rəmzləşdirir. Başqa sözlə desək, uşağın ana bətnindən ayrılması bunu ifadə edir. Ana bətni mif və folklorda ilk növbədə torpaq, qaynaq (çeşmə), mağara, dənizin dibi, şəhər kimi obrazlarla işarələnir. Qədim insanların təsəvvüründə torpaq əkilmək, bitirmək, doğurmaq, bərəkətlilik xüsusiyyətlərinə görə qadın – ana ilə assosiasiya doğurmuş və qadın obrazı ilə şəxsləndirilmişdir. Göylər isə yağış vasitəsilə torpağı suvardığına görə, günəşin şüaları ilə onu qızdırdığına görə qədim insanların təsəvvüründə "mayalanma" prosesinin assosiasiyasını yaratmış və Böyük ata – kişi başlanğıcı obrazında şəxsləndirilmişdir. Orxon – Yenisey daş kitabələrindən Kültigin abidəsinin Şərq tərəfində yazılmış, dünyanın yaradılması haqqında ilkin kosmoqonik təsəvvürlərin təzahürü olan aşağıdakı mətndə həm də qədim türklərin qadın və kişi başlanğıcı ilə bağlı fikirləri ehtiva olunmuşdur: "Üstdə mavi göy, altda qonur yer yaradıldıqda ikisinin arasında insan oğlu yaranmış..."dır (2,78).

Təsadüfi deyildir ki, Azərbaycan mərasim folklorunda – Novruzqabağı çərşənbələrdən sonuncusu olan Torpaq çərşənbəsində qədim əcdadlarımız qarşıdan gələn ildə torpağın bol məhsul verməsini, bərəkətli olmasını təmin etmək üçün qadın kimi təsəvvür etdikləri torpağı ehtiraslandırmağı lazım bilmişlər. Bu məqsədlə cavan oğlanlar toxum səpilib əkiləcək torpaq sahəsində yarıçılpaq vəziyyətdə güləşərdilər.

Böyük ana miflərdə Yerin – Torpağın ümumiləşdirilmiş obrazı, məhsuldarlıq ilahəsi kimi çıxış edir. Kosmos, xaos, yaradıcı başlanğıc, erotizm, insest, ölüm, ölüb-dirilmə kimi motivləri özündə ehtiva edir. Böyük ana çox zaman xaosla eyniləşdirilir. Çünki onun təsiri, iştirakı ilə nağıl və dastanlarda nizamın pozulması müşahidə edilir. Bu da öz növbəsində süjetə təkan verərək onu hərəkətə gətirir, qəhrəman nizamın bərpa olunması istiqamətində fəaliyyət göstərir.

Qeyd etməliyik ki, Böyük ana (Torpaq) arxetipinin doğurduğu motivlərdən insest (qan qohumluğuna əsaslanan nikah) mifoloji dönəm üçün bütün xalqlarda yolverilən və adi olduğu halda, folklorda qanundankənar,

qınanılan, təqib edilən, biabırçı hadisədir. Çünki cəmiyyət artıq bu mərhələni arxada qoymuş, ondan imtina etmişdir. Tarixdə insestin ata və qız, ana və oğul, bacı və qardaş arasında olan növləri məlumdur. "Qız qalası" rəvayətində ata-qız xətti özünü göstərir və təbiidir ki, facia ilə yekunlaşır. "Kitabi – Dədə Qorqud" dastanında 40 namərd yoldaşı Dirsə xana Buğacın öz anasına təcavüz etdiyini söyləyirlər. Böhtan olsa belə, insestin yalnız xatırlanması boyda hökm sürən nizamı pozur, xaos yaradır və ata ilə oğul arasında qarşıdurmaya gətirib çıxarır (3, 37).

Ədəbiyyatşünaslıqda ana ilə oğul arasında insest "Edip kompleksi" adı altında ümumiləşdirilmişdir. Həmin mifdə atasının yerinə keçmək üçün onu öldürən Edip taxt-taca yalnız anası ilə evlənməklə sahib ola bilərdi. Bu mifi təhlil edən psixoanalitiklər həmin aktın kökündə müxtəlif səbəbləri görmüşlər. Məsələn, O.Rank doğuşdan alınan zədəni və ana bətninə qayıtmaq istəyini ön plana çəkir. Adler qəhrəmanın öz anası üzərində hökmranlıq arzusunu əsas götürür. Yunq isə Freyd kimi qəhrəmanın anasını infantil şəkildə atasına qısqandığını, uşaqlığına dönmək istəyini vurğulayır (4, 4).

Dünya ədəbiyyatında dəfələrlə işlənmiş bu süjetin əsasında nəsillərin əvəzlənləsi ilə əlaqədar qoca kahin-hökmdarın yenisi ilə vuruşması və taxtından salınması ənənəsinin dayandığı barədə fikir mövcuddur.

Dünya xalqlarının folklorunda geniş yayılmış və Azərbaycan ağız ədəbiyyatında da bir neçə nümunədə özünü göstərən "ata ilə oğulun döyüşməsi" süjeti isə başqa cür mənalandırılmalıdır. Süjet belədir ki, qəhrəmanın uzaq ölkədə cəngavər qadından doğulmuş oğlu atasız böyüyür. Sonradan oğul atasını axtarmağa gedir. Ata və oğul bir-birini tanımadan vuruşurlar. "Koroğlu" dastanında Koroğlu ilə Kürdoğlu qarşıdurması onların bir-birini tanıması ilə xoşbəxt sonluğa varırsa, dünya xalqlarının eposunda toqquşma əksər hallarda facia ilə bitir. Daha doğrusu, ata oğlunu öldürür (Hildebrand və Hadubrand, Rüstəm və Söhrab, İlya Muromets və Sokolnik və s.). Bu süjetin kökündə qəhrəmanın nikah qaydalarına uymaması, onlara etinasız yanaşması durur. Belə ki, həmin dövrdə ailədaxili nikahdan imtina edilsə də, çox uzaq tayfadan qız almaq da təqdir edilmirdi. Bu, endoqamiyanın pozulması demək idi.

Nağıllardakı qəddar ögey ana obrazı da endoqamiyanın pozulması kimi qələmə verilir. Belə ki, arvadı ölmüş ata ikinci arvadını uzaq, yad tayfadan gətirməklə ənənəvi nizamı pozmuşdur. Belə qadın onun uşağına yaxşı ana ola bilməzdi.

Yeri gəlmişkən, Böyük ana arxetipinin sonrakı transformlarını izləyərkən onun genetik baxımdan nağıllardakı "ögey ana", yaxud demonik düşmən surətlərin anası ilə bağlılığı müəyyənləşdirilmişdir. Y.M.Meletinski müxtəlif xalqların eposunda analoji surətləri nəzərdən keçirmiş, Sibirin türk-monqol eposlarında Kəklik Qarıların, manqadxayklarn, "Kalevala"da Louxinin, irland eposunda cadugər Medbin, ingilis-sakson eposunda bədheybət Qrendelin anasının adlarını sadalamışdır (4, 46). Azərbaycan nağıllarındakı div anaları, "Kitabi-Dədə Qorqud"da Təpəgözün anası Pəri bu parametrlərə uyğun gəlir.

Nikahın başqa bir növü totemlə evlənməkdir. Miflərdə bilavasitə heyvanla izdivaca girməyi nəzərdə tutan bu süjet sonrakı transformasiyasında heyvan cildinə girmiş qadın kimi təzahür edir. Tilsimlənərək qurbağa, qu quşu cildinə düşən qız gecələr insan şəklinə qayıdır. Şahzadəyə ərə gedən qız onun qarşısına şərt qoyur. Bu şərt müxtəlif xalqların folklorunda fərqlidir (onun adını çəkməmək, heyvan dərisini yandırmamaq, gündüzlər onunla görüşməmək və s.). Şərtin, əslində isə tabunun – yasağın pozulması nəticəsində qız ərini tərk edir. Şahzadə onun ardınca gedib çətin sınaqlardan keçdikdən sonra arvadını qaytarır.

Qeyd etmək lazımdır ki, folklor düşüncəsinə görə, totemlə nikah yolverilməndir və burada endoqamiyanın pozulması halı yoxdur. Təsvir etdiyimiz beynəlxalq süjetin Azərbaycan variantı 1888-ci ildə SMOMPK məcmuəsində müəllim A.Zaxarov tərəfindən Şamaxı ərazisində yazıya alınaraq çap edilmişdirdir. "Şahzadə qurbağa" adlanan bu nağılda Aarne-Andreyev göstəricisindəki 402 nömrəli süjetin başqa süjetlərlə kontaminasiyasını müşahidə edirik. Belə ki, Şahın atasının qıza gözü düşdüyündən o, oğluna çətin tapşırıqlar verir, hətta onu ölülər səltənətinə göndərir ki, dünyasını dəyişmiş anasından xəzinənin açarının yerini öyrənsin. Həmçinin bu nağılda qızın uzun saqqallı qocanın şəxsində sehrli köməkçisi də vardır (5, 141-155).

Məişət nağıllarında və bəzi dastanlarda heyvan cildində olan tilsimli nişanlı öz sehrli əlamətini itirir və heyvan dərisi deyil, kişi libası geyinir. O buna öz namusunu qorumaq, tapdalanmış haqlarını bərpa etmək, günahsızlığını sübuta yetirmək məqsədi ilə əl atır. Aarne-Andreyev cədvəlində 883-cü nömrə altında verilən bu süjet "Böhtana düşmüş qız" adlanır və Azərbaycan folklorunda "Alı xan və Pəri xanım" dastanında işlənilmişdir(1,63).

Göründüyü kimi, mifdən sehrli nağıla, oradan məişət nağılına və dastana transfer olunan süjet əsaslı dəyişikliklərə uğrasa da ilkin arxetip özünü büruzə verir.

Hər bir süjetin mərkəzində duran əsas qəhrəman folklorda digərlərindən müəyyən əlamətləri ilə seçilir. Bu, çox zaman onun möcüzəli şəkildə doğulması ilə əlaqələndirilir. Dünya folkloru qəhrəmanın möcüzəli doğuluşunun çox geniş və rəngarəng spektrini təqdim edir: ruhdan, hər hansı bir meyvəni yeməklə (alma, giləmeyvə), daşdan, küləkdən, quru kəllənin tozundan, nəzir-niyaz vermək, qurban kəsmək yolu ilə və s. Möcüzəli şəkildə dünyaya gələn qəhrəman çox tez böyüyür, qeyri-adi gücə malik olur. Qəhrəman obrazının arxetipi kimi miflərdə ilkin əcdad, mədəni qəhrəman çıxış edir. Bu, tayfaya xeyirli, lazımlı bir əşyanı, ünsürü, neməti tapıb gətirən, əldə edən, yaxud düzəldən şəxsdir. Mədəni qəhrəmanın fəaliyyəti bəzən təsadüfi, bəzən də şüurlu xarakter daşıyır. İkinci halda qəhrəman fədakarlıq göstərərək bütün təhlükələrə baxmayaraq, tayfası üçün lazım olan əşyanı tapıb gətirir (Prometey).

Qəhrəman özünütəsdiq yolunda fəaliyyət göstərir. Süjetin inkişafı heç olmazsa iki surətin varlığını, ünsiyyətini, kontaktını, yaxud qarşıdurmasını tələb edir. Bu da qəhrəmanın şər qüvvələrlə mübarizəsində öz təzahürünü tapır. Yaradılış mövzusu zaman daxilində hərəkəti ehtiva edir. Bunun daxilində bir də məkan içrə hərəkət vardır. Bu, səyahət mövzusunun arxetipidir. Qəhrəman yeraltı və ya sualtı aləmə, ölülər səltənətinə, totemin şahlığına,

yaxud göyə səyahət edə bilər.

Qəhrəmanin bir tipi də ailənin kiçik oğlu və ya üçüncü qardaşdır. Kiçik qardaşın nağıllarda ideallaşdırılması sosial baxımdan onun binəsib, məzlum, incidilmiş olması ilə bağlıdır. Bu obrazı bəzən zahiri çirkinliyinə rəğmən yüksək mənəvi dəyərlərə malik olması kimi xüsusiyyətlər müşayiət edir.

Folklorda qəhrəman inkişafda, dinamikada göstərilir. O, əsər boyu müxtəlif sınaqlarqan keçir, özünü təsdiq edir. Bu sınaqların real variantı həddi-büluğa çatan oğlanların inisiasiya mərasimi olmuşdur. Real mərasimdə gəncləri sınaqdan keçirənlər tayfanın yaşlı nümayəndələridir. Mifdə bu rolu ilahi ata, dayı, qayınata, yaxud tayfa başçısı oynayır. Nağılda isə qəhrəmanı ağır sınaqlara düçar edən, hətta gedər-gəlməzə göndərən hökmdar – gələcək qayınatası, ögey ana, yaxud şəri təmsil edən varlıqlardır.

Sehrli nağıllarda sınaqlar iki tipdə - ilkin və əsas sınaqlar şəklində təqdim edilir. Birinci mərhələdə möcüzəli varlıqların xahişini yerinə yetirməli olan, onlarla nəzakətli davranmalı olan qəhrəman ikinci mərhələdə şəri təmsil edən dəhşətli varlıqla qarşılaşır. Məsələn, bir qrup oğlan uşağının adamyeyənin əlinə keçməsi və hiylə ilə ondan qurtulması süjeti buna nümunə ola bilər. Aarne-Andreyev göstəricisində 327-ci nömrə altında verilən bu süjetə bizim "Cırtdan" nağılı uyğun gəlir (1, 29-30). Uşaqların hamısının oğlan olması da inisiasiya mərasiminə işarədir.

Şüurlu "Mən"in qeyri – şüurludan ayrılması "mübarizə" arxetipində ifadə olunur. Bu isə dünya xalqlarının folklorunda qəhrəmanın əjdaha ilə döyüşməsi şəklində təzahür edir. Qəhrəman əjdaha ilə vuruşaraq dəyişir, ali şəxsiyyətə çevrilir. Onun igidliyi kişi başlanğıcının qalibiyyətidir. Ümumilikdə bəşəriyyətin arxetipi olan qəhrəman şəxsi "mən"ini təsdiq edir. Əjdaha ilə döyüş öz şər mahiyyətli kölgəsinə - əkizinə qarşı mübarizə kimi də şərh edilə bilər. "Kölgə" arxetipi şəxsiyyətin şüurun astanasında qalan qeyri – şüurlu hissəsidir ki, bəzən onun şər mahiyyətli əkizi kimi də çıxış edir.

Əjdahanı öldürüb onun əsiri olan qızı azad edən qəhrəman valideynlərinin təsir dairəsindən çıxıb həddi – büluğa çatdığını (inisiasiya mərasimini keçdiyini) sübut etdiyindən artıq evlənməyə hazırdır.

Əjdaha həm suda-quruda yaşayan, həm uçan heyvanların əlamətlərini özündə daşıyır. O, çox zaman qanadlı, ağzından od püskürən bir varlıq kimi təsvir olunur, suyun qarşısını kəsərək əhaliyə su buraxmaq müqabilində hər gün və ya hər həftə bir qız tələb edir. Xaosu təmsil edən su digər tərəfdən həyati baxımdan zəruri olan ünsürdür. Qəhrəman əjdahanı məhv etməklə çox zaman həm gözəl nişanlıya, həm də əjdahaya məxsus xəzinəyə sahib çıxır. Bir çox xalqların folklor nümunələrində rastlaşdığımız bu süjet Azərbaycan nağıllarında da geniş yayılmışdır. Həmin süjet XIX əsrdə Salahlı kəndində B.Vcniaminov tərəfindən toplanaraq SMOMPK məcmuəsində rus dilində çap edilmiş "Məlik-Məmməd və Məlik-Cümşüd" nağılında da işlənilmişdir (6, 112-118). Aarne-Andreyev göstəricisində həmin süjet 300A, 300B nömrələri altında yerləşdirilmişdir (1, 26). Qəhrəmanın qızı əjdahadan xilas etməsi mənşə etibarı ilə qədim qurbanvermə mərasiminə gedib çıxır. Belə ki, qədim insanlar su hamisinə vaxtilə bakirə qızları qurban verərdilər. Bu vəhşi adət sıradan çıxsa da süjet həmin dövrlərin izlərini qoruyub saxlamışdır. Əjdaha ilə mübarizə süjeti eposa transfer edərkən yad tayfalar və yad dinlilərlə mübarizə şəklində dəyişikliyə uğrayır.

Onu da qeyd etməliyik ki, əsasən nağıllarımızda rast gəlinən bu süjetin daha erkən arxetipini izləsək məhsuldarlıq tanrısının köməyi ilə gülüstana çevrilən səhra haqqında mifə gedib çıxarıq. Məlum olduğu kimi, nağıllarda əjdaha suyun qarşısını kəsərək quraqlıq və aclıq gətirir. Qəhrəman onu öldürüb suyu xalqa qaytararaq torpağın yenidən məhsul verməsini təmin edir.

Göründüyü kimi, mif süjetləri sonradan rəvayətlər şəklində nağıl və eposların özəyini yaratmış, erkən nümunələrin ideya, məzmun xüsusiyyətlərini və obrazlar sistemini müəyyənləşdirmişdir. Psixoanalitiklərin işləyib hazırladıqları arxetiplər təlimi isə ənənəvi süjetlərin mənşəyinin, oxşarlıqların səbəblərinin araşdırılmasında bir çıxış nöqtəsi ola bilər.

## ƏDƏBİYYAT:


1. Андреев Н.Н. Указатель сказочных сюжетов по системе А.Аарне. Издание Государственного Русского Географического Общества. Ленинград 1929, 118 с.
2. Rəcəbov Ə., Məmmədov Y. Orxon – Yenisey abidələri. Yazıçı, Bakı, 1993, 400 s.
3. Kitabi – Dədə Qorqud. (Tərtib edənlər: F.Zeynalov, S.Əlizadə). Yazıçı, Bakı, 1988, 264 s.
4. Мелетинский Е.М. О литературных архетипах. Российский государственный гуманитарный университет. Москва, 1994, 145 с.
5. СМОМПК. Выпуск VI. Издание Управления Кавказского Учебного Округа. Тифлис, 1888, 225 с.
6. СМОМПК. Выпуск III. Издание Управления Кавказского Учебного Округа. Тифлис, 1883, 350 с.


***Açar sözlər: oxşar süjetlər; arxetip; etnopsixoloji və psixoanalitik təhlil; "ana", "uşaq", "kölgə" arxetipləri***

**Сюжетные архетипы «мать», «дитя» и «тень» в азербайджанском фольклоре**

## РЕЗЮМЕ

Сравнение и анализ схожих сюжетов, имеющихся в фольклоре народов мира, начиная с XIX века по сегодняшний день, показывает, что соответствия более отчетливо проявляются на первых ступенях развития. Разнообразие, своеобразные особенности, различия появились позднее и зачастую скрывают, отодвигают на задний план присущие древним временам аналогии. Однако, глубокий этнопсихологический и психоаналитический анализ дает возможность выявить элементы, дающие толчок зарождению различных сюжетов и закрепившиеся в международном фольклоре как термин «архетип». Эти элементы зарождаются в основном, на базе коллективных представлений, под бессознательным влиянием биологической наследственности и противостоят всем индивидуальным проявлениям. Выявление архетипов помогает в

деле понимания «языка сюжетов», а также символов и знаков, изображаемых образами, пространствами и событиями.

В докладе подробно рассматриваются архетипы «матери», «дитя», «тени», которые составляют первичные элементы фольклорных сюжетов народов мира, анализируются отражения этих архетипов в конкретных примерах азербайджанской устной литературы.

**Ключевые слова: схожие сюжеты; архетип; этнопсихологический и психоаналитический анализ; архетипы «мать», «дитя», «тень»**

**"Mother", "child" and "shade" subject archetypes in the Azerbaijani Folklore**

**SUMMARY**

Comparison and the analysis of the similar plots which are available in the international folklore, since XIX century till today, shows, that conformity are more distinctly shown at the first steps of development. A variety, original features, distinctions were showed later and frequently hide, remove the analogies inherent in ancient times on a background. However, the deep ethno-psychological and psychoanalytic analysis gives the chance to reveal the elements giving a push to origin of various plots, fixed in the international folklore as the term "archetype". These elements arise basically on the basis of collective representations, under unconscious influence of a biological heredity and resist to all individual representations. Revealing of archetypes helps with understanding business "language of plots", and also symbols and the signs expressed in the images, space and events.

In the report are in detail considered such archetypes as "mother", "child", "shade", which make primary elements of folklore plots of international folklore, and are analyzed reflexions of these archetypes in concrete examples of the Azerbaijani oral literature.

**Key words: similar plots; archetype; ethno-psychological and psychoanalytic analysis; archetypes as "mother", "child", "shade"**

*Rəyçi: prof.Qəzənfər Paşayev*